# Qəbələnin sosial-iqtisadi inkişafı möhkəm zəminə söykənir

## 2019-cu ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin hesabat

## MƏRUZƏSİ



*Prezident İlham Əliyev Qəbələ şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyə verilməsi tədbirində.*

***Gözəlliklər diyarı Qəbələdə ekoturizmin inkişafı üçün geniş imkanlar var.***

**İlham ƏLİYEV.**

(Əvvəli 3-cü səhifədə).

va xətlərində 120 ədəd fiziki köhnəlmiş ağac dayaq dəmir beton və metal dayaqlarla əvəz edilmiş, 17.300 metr məsafədə istismara yararsız, fiziki köhnəlmiş naqillər AS-50, AS-35 markalı naqillərlə əvəz edilmişdir.

Qəbələ Paylayıcı Şəbəkə Sahəsinin xidməti ərazisində 37,2 km məsafədə 0,4 kV-luq fiziki köhnəlmiş 0,4 kV-luq özünü daşıyan izolyasiyalı naqillərlə əvəz edilmiş, 458 ədəd ağac dayaq dəmir beton və metal dayaqlarla əvəz edilmiş, 157 km məsafədə 0,4 kV-luq hava xəttinin trassasında ağac kütlələrdən təmizlmə işləri aparılmışdır.

Əhali və qeyri əhali sektorunda 378 ədəd yeni, 84 ədəd 3 fazalı sayğac quraşdırılmış, 3454 ədəd qüsurlu sayğac yenisi ilə əvəzlənmişdir.

Təbii qaz istehlakçıları tərəfindən 47.425,2 min kubmetr təbii qaz istehlak edilmiş, 6.711,6 min manata qarşı 6.642,3 min manat vəsait toplanaraq ümumi yığım məbləği 99,0 % olmuşdur. Həmin göstərici əhali sektoru üzrə 102,0 %, büdcə təşkilatları üzrə 98,5 %, sənaye, kommersiya və digər təşkilatlar üzrə 92,4% təşkil etmişdir. Əhali abonentlərin ümumi sayı 19.911-ə çatdırılmışdır.

İl ərzində müxtəlif diametrli polad borularla 7.936 metr yeni qaz xətti çəkilmiş, 5 ədəd təzyiq tənzimləyicisi, 8 ədəd siyirtmə quraşdırılmışdır.

"Təmiz Qaz" MMC və xidmət sahəsi tərəfindən işləməyən 1.298 sayğac əvəzlənərək dövlət yoxlamasına göndərilmişdir. Dövlət proqramı üzrə "Azəriqaz" İB-nin sifarişi ilə ümumilikdə 1.517 əhali abonent və 12 qeyri əhali abonent qazla təmin olunmuşdur.



*Prezident İlham Əliyev "Azərxalça" ASC-nin Qəbələ Filialının açılış mərasimində iştirak edib.*

Bu layihənin icrası Azərbaycan hökuməti və Dünya Bankının birgə maliyyələşdirdiyi "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi", həmçinin dövlət investisiya proqramı çərçivəsində həyata keçirilib. Layihə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Qəbələ şəhərində 30 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Qəbələ şəhərində əhalinin dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə Dəmiraparan çayının yatağında 8 subartezian quyusu qazılıb. Su mənbəyindən Qəbələ şəhərinə 10,5 kilometr magistral su xətti çəkilərək yeni şəbəkəyə birləşdirilib. Layihə çərçivəsində şəhərdə ümumi tutumu 10.400 kubmetr olan 6 su anbarı, xlorator qurğusu və laboratoriya binası inşa edilib. Görülən işlər nəticəsində şəhərdə 132 kilometr içməli su şəbəkəsi yaradılıb, 7 mindən çox abonent yeni şəbəkəyə qoşulub və sayğaclaşma işləri aparılıb. Hazırda şəhər əhalisi yeni yaradılmış infrastruktur hesabına fasiləsiz rejimdə içməli su ilə təmin olunur. Şəhərdə 123 kilometrlik kanalizasiya şəbəkəsi və 8,2 kilometr uzunluğunda kanalizasiya kollektoru inşa edilib. Tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 4.400 kubmetr olan tullantı sutəmizləyici qurğunun tikintisi yekunlaşıb.

Rayon mənzil istismar və kommunal müəssisələr kombinatı il ərzində şəhər təsərrüfatına 256,3 min manat, ictimai yaşayış binalarına 67,8 min manat, idarə və müəssisələrə 106,6 min manat, kommersiya obyektlərinə 11,0 min manat və fərdi təsərrüfatlara 5,2 min manat cəmi 446,9 min manat dəyərində təmizlik və




*Prezident İlham Əliyev "Azərxalça" ASC-nin Qəbələ Filialının kollektivi ilə birlikdə xatirə şəkli çəkdirib.*

(Ardı 5-ci səhifədə).